# Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mənzil Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 612 (Cild I); 2024, № 5 (I kitab), maddə 489) aşağıdakı dəyişikliklər edilsin:

1. 48.1-ci maddəyə "gənclərə" sözündən sonra ", habelə qanunvericiliklə müəyyən edilən kateqoriyadan olan digər vətəndaşlara" sözləri əlavə edilsin.

2. 51-ci maddə üzrə:

2.1. 51.2-ci maddənin ikinci cümləsində "digər kateqoriyaya aid" sözləri "kateqoriyadan olan digər" sözləri ilə əvəz edilsin və həmin cümləyə "həmin vətəndaş" sözlərindən sonra "bu Məcəllənin 51.2-1-ci maddəsi nəzərə alınmaqla," sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 51.2-1-ci maddə əlavə edilsin:

"51.2-1. Bu Məcəllənin 48.1-ci maddəsində nəzərdə tutulmuş qanunvericiliklə müəyyən edilən kateqoriyadan olan digər vətəndaşlar sosial kirayə müqaviləsi əsasında dövlət mənzil fondunun yaşayış sahəsini əldə etmək məqsədilə yalnız bir dəfə yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alına bilərlər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2025-ci il*

Azərbaycan.- 2025.- 11 mart (№ 53).- S.2.